**Özü qədər də sadə tərcümeyi-halı olub Mübarizin. Bir dastana sığmayan hünər və qəhrəmanlığı bir vərəqə yerləşir. O, 7 fevral 1988-ci ildə Biləsuvar rayonunun Əliabad kəndində zəhmətkeş ailədə dünyaya göz açıb. Ailənin sonbeşik övladı olub. 2006-cı ildə orta təhsilini başa vurub. Sonra hərbi xidmətə yollanıb. Daxili Qoşunlarda xidmət edib. Nümunəvi əsgər kimi Vətən qarşısındakı borcunu yerinə yetirib doğmalarının yanına qayıdıb. Bir müddət təsərrüfat işlərində ata-anasına kömək edib. Ancaq bir gün elə iş başındaca ürəyindən keçənləri atasına deyib: "Ata, mən burada olmasam da, siz bu işlərin öhdəsindən gələ bilərsiniz. Amma hesab edirəm ki, torpaqlarımızın işğal altında olduğu bir vaxtda mən ön xətdə gecə-gündüz torpaqlarımızı qoruyan əsgərlərimizin yanında olmalıyam. Bəlkə, onda rahat olaram!".**






## *7 fevral Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum günüdür*

# Əbədi qalibiyyət dastanı...

Kənddə hamının sakit, təmkinli, əsl zəhmətkeş adam kimi tanıdığı Ağakərim kişi alnında puçurlanmış tər damcılarını silərək daxilində təlatüm qaynayan sonbeşiyinin gözlərinə baxmışdı. Gözləri od saçan oğlunun dilindən eşitdiyi sözlər onun ata qəlbini fərəhləndirmiş, iftixar hissi ilə doldurmuşdu: "Düz deyirsən, torpağı oğullar qoruyar. Kirpik gözün keşiyini çəkən kimi, torpaqlarımızın da keşiyini sənin kimi oğullar çəkməlidir. Vətən igid oğulları ilə qüdrətli olur. Sənin qərarını alqışlayıram".

Bir gün sonra hərbi komissarlığa yollanan Mübariz birbaşa ön xətdə olan hərbi hissələrdən birinə göndərilməsini təkid etmişdi. Hündürboy, əsl idmançı görkəmi olan, gözlərindən od yağan gəncin inadkarlığı, döyüş əhvali-ruhiyyəsi komissarlıq işçilərini də çox sevindirmişdi. Onu gizir məktəbinə göndərdilər. Bir neçə aydan sonra gizir Mübariz İbrahimov arzusuna çatacaq. Tərtər bölgəsinə - düşmənlə üzbəüz mövqe tutmuş hərbi hissələrdən birində xidmətə başlayır. Ön xətdə xidməti üz-üzə dayandığı düşmənə olan nifrətini bir az da artırmışdı. İçindəki qəzəbi, nifrəti güclə cilovlayırdı. Ancaq əmin idi ki, bir gün bu tufana təslim olacaq... Oldu da. Vətən, torpaq məhəbbətinin hər şeydən əziz və uca olduğunu sübuta yetirərək hamıya örnək ola biləcək bir nümunə göstərdi. Düşmən bir türk oğlunun cəsarəti, hüneri və igidliyi qarşısında aciz qaldı.

Mübariz qəhrəmanlığından 10-15 gün əvvəl kənddə müəllimləri ilə söhbətində demişdi: "Gedirəm, tezliklə mənim haqqımda eşidəcəksiniz. Atəşkəsi pozan ermənilərdən elə bir qisas alacağam ki, ömür boyu yadlarından çıxmasın". Hərbi hissəyə məhz belə əhvali-ruhiyyə ilə qayıtmışdı. Şərəfsiz düşmənə öz sözünü cəsarətlə demək üçün. Keçdiyi hərbi xidmət, idmanla məşğul olması Mübarizin xarakterində sözübütövlük, iradə möhkəmliyi, döyüşkənlik, sözünün arxasında durmaq kimi mühüm keyfiyyətlər formalaşdırmışdı. Onun özündə cəmləşdirdiyi bu keyfiyyətlər əsgər dostlarına da sirayət edir, onlar da Mübarizə oxşamağa, hər bir işdə onun kimi hərəkət etməyə çalışırdılar.

İyul ayının hər tərəfə od ələdiyi isti günlərindən birində televiziya kanalları belə bir məlumat yaydı: iyunun 18-dən 19-na keçən gecə Tərtər rayonunun Çaylı kəndi istiqamətində atəşkəs rejimini pozan ermənilər müxtəlif çaplı silahlardan mövqelərimizi atəşə tutmuşlar. İgid əsgərlərimiz düşmənin bu həmləsinə layiqli cavab verməklə onları geri çəkilməyə məcbur etmişdir. Silahlı qüvvələrimizin giziri Mübariz İbrahimov düşmənin geri çəkilməsində böyük igidlik və qəhrəmanlıq göstərmiş, düşmənin xeyli sayda qüvvəsini məhv edərək özü də igidliklə həlak olmuşdur. Bütün respublikada sensasiyaya səbəb olmuş bu xəbər onu eşidən hər bir kəsdə böyük qürur, iftixar hissi oyatdı. Vətənin Mübariz oğlu xalqın döyüş ruhunu, əzmkarlığını, yenilməzliyini, lazım gələndə ölümün gözünə dik baxmaq bacarığını nümayiş etdirdi.

22 yaşlı Mübarizi şəhidlik zirvəsinə ucaldan Vətən sevgisi, torpaq, yurd məhəbbəti idi. Bir həqiqət də budur ki, köksündə, ürəyinin ən dərin guşəsində Vətənini sevən, ona bağlı olan oğulları çoxdur bu xalqın. Böyük inqilabçı Şeyx Məhəmməd Xiyabaninin müdrik bir fikri var: "Kişinin ayağı altında azad Vətən torpağı olmalı, başı üzərində istiqlal bayrağı dalğalanmalıdır".

Orta məktəbdə Mübarizə rus dili dərsi keçmiş Bəsirə Rüstəmova qəhrəmanla bağlı xatirələrində qeyd edir ki, sinif yoldaşları arasında gözəl çöhrəsi, ədəbərkanı, əxlaqı ilə seçilirdi. Onun birinci sinfə gəlişi indiyə kimi gözümün qabağındadır. Sarışın bir uşaq idi. Çantasını güclə sürüyə-sürüyə məktəbə gəlirdi. Gözlərinin rəngi ilə seçilən Mübariz təbiətcə çox sakit uşaq idi. Onun mənalı gözləri yaddaşımdan heç vaxt silinməyəcək. Onunla son görüşümü xatırlayıram. Bir neçə günlüyə kəndə gəlmişdi. Təsadüfən qarşılaşdıq. Ucaboylu, sağlam, güclü bir gəncin mənə tərəf gəldiyini gördüm. Əvvəl tanımadım. Yaxınlaşıb salam verdi. Aman Allah, bu ki, Mübarizdir. Tamamilə dəyişib, əsl igid olmuşdu. Xeyli söhbət etdik. Ona uğurlar arzuladım. Təxminən bir həftə - on gün sonra Mübarizin qəhrəmanlığı bütün dünyaya yayıldı. Mübariz ömrümün sonuna qədər qəlbimdə yaşayacaq.

*Xalid Rüstəmov:* "Mübarizi uşaq vaxtlarından tanımışam. Ana Vətən həmişə belə igid və cəsur oğulları ilə şöhrət tapıb. Şəhid qanı ilə yazılmış bir qəhrəmanlıq əbədi tarixə çevrilir. Mübariz Biləsuvarın ilk Milli Qəhrəmanıdır. 2020-ci ildə Vətən müharibəsində üç biləsuvarlı gənc Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb. Onların göstərdikləri qəhrəmanlıqla təkcə Biləsuvar deyil, bütün ölkəmiz fəxr edir".

Mübariz daim düşünürdü: müqəddəs, bərəkətli, min bir nemətli torpaqlarımız düşmənə heç vaxt pay ola bilməz. Bu amal uğrunda öz canlarından keçmiş şəhidlərimizin, Mübariz kimi ərənlərimizin tökülən qanları, ruhları bizi bağışlamazdı. Bizim doğma torpaqlarımıza qayıtmağımız şübhəsiz idi. Qarabağ bu gün yenə də çal-çağırlı günlərini yaşayır. O torpaqlarda doğma sakinlərin ayaq səsləri eşidilir.

Bəli, uzun illər Azərbaycan gəncləri bu amalla yaşadı, bu ruhda kökləndilər. Məhz elimizin qəhrəman oğlu Mübariz İbrahimov kimi. Mübariz öz qanıyla əbədi qalibiyyət dastanı yazdı... 2020-ci ildə Vətən müharibəsində torpaqlarımızı azad edən məhz Mübariz ruhlu gənclər oldu. İndi bütün torpaqlarımızda Azərbaycanın üçrəngli bayrağı qürurla dalğalanır.

Vətənə məhəbbət hissi 22 il ömür yaşamış, amma bu qısa ömrü ilə milyonlarla insanın qəlbində özünə əbədi məskən salmış, qeyrət-şücaət və qəhrəmanlıq simvoluna çevrilmiş Mübariz İbrahimov xalqımıza baş ucalığı gətirdi.

...Deyirlər, Mübariz baharı çox sevərdi. Yazda açılan gül-çiçəyə baxmaqdan doymazdı. Şəhidlik zirvəsinə ucalanda da elə ömrünün bahar çağında idi...

**Müşfiq MİRZƏ,**
**"Respublika".**